# Danışıq aktının fərqləndirilməsində intonasiyanın rolu

**Tamerlan Şahbazlı**
*Bakı Avrasiya Universitetinin müəllimi*
**E-mail:** adiloghlu@yahoo.com

**Rəyçilər:** filol.ü.e.d., prof. F.Y. Veysəlli,
filol.ü.f.d., dos. C.M. Babayev

**Açar sözlər:** intonasiya, komponent, rol, semantik, ünsiyyət, praqmatik, ekspressiv
**Ключевые слова:** интонация, компонент, роль, семантика, общение, прагматика, экспрессивный
**Key words:** intonation, component, role, semantic, communication, pragmatic, expressive

Danışıq aktının fərqli semantik-qrammatik formaları onlar üçün ümumi məntiqi fikir formalarından başqa, müxtəlif praqmatik məqsədlərə xidmət göstərən modal, ekspressiv, emosional və ritorik xarakterli fikir rəngarəngliyi ifadə edirlər. Hər bir semantik-qrammatik danışıq aktı eyni məntiqi məzmun daxilində başqa cümlələrdən fərqli olaraq nəsə yeni bir məna ifadə edir. F.Veysəlli yazır: "...cümlədə omonimlik və çox mənalığın intonasiya vasitəsilə dəqiqləşdirilməsində, ifadə olunan fikrin aydın və birmənalı şəkildə dərk olunmasında üç mühüm dildaxili: intonasiya, söz sırası və semantik prinsiplərdən və bir dilxarici amildən, daha dəqiqi, presuppozisiyadan istifadə olunur" [1, 237]. İntonasiyanın köməyilə fikrimizi danışıq aktında istənilən ölçüdə, biçimdə və semantik çalarda verə bilərik [1, 238].

Nəqli cümlələr kontekst daxilində sual funksiyası yerinə yetirir. Bu o halda mümkündür ki, danışan haqqında söhbət gedən məsələyə dinləyənin diqqətini cəlb etmək istəyir. Danışıq aktlarında müşahidə edilən bu forma intonasiyanın qalxması ilə izlənilir və danışıq aktının əvvəlində /so/ və sonunda isə /then/ danışıq markerləri işlədilir. Nümunəyə baxaq:

— It is a little cottage. It is very old fashioned, but too clean and cosy.
— Oh well.
— New kitchen and new other equipments.
— So you're pleased?
— Oh, I am relieved. Yes, yes.
— So you had a good day at work then?
— Yes, it was all right.

Nəqli cümlələrinin bu formada sual formasını ifadə etməsi danışıq aktının əsasən deklarativ növü üçün xarakterik hesab edilir.

Danışıq aktında intonasiya insanın emosiyalarının ifadəsilə sıx əlaqəlidir. Bununla bağlı olaraq L.R.Zinder yazır: "...lakin intonasiyanın emosional sahəsində onun linqvistik və qeyri-linqvistik aspektlərini fərqləndirmənin lazımdır" [2, s. 269]. Alimin qənaətinə görə, "danışıq aktında danışanın söylənilənə münasibətini səciyyələndirən cəhətləri emosional intonasiyanın linqvistik aspektinə aid etmək olar, danışanın ümumi vəziyyətini xarakterizə edən emosional intonasiya vasitələri isə linqvistik deyildir" [2, 269].

Cümlə növləri ilə danışıq aktları arasındakı səciyyəvi uyğunluğu müşahidə edək:

| *Cümlənin növü* | *Danışıq aktı* | *Nümunə* | *Azərbaycan dilində tərcüməsi* |
|---|---|---|---|
| Nəqli cümlə | Bəyanat | He works in London | O, Londonda işləyir. |
| Sual cümləsi | Sorğu-sual, məlumat alma və ötürmə | How long does it take you to visit there? | Ora getməyə sənin nə qədər vaxtın gedir? |
| Əmr cümləsi | direktiv | Put it all in a pile there. | Onların hamısını oraya üst-üstə yığın. |
| Exclamative | nida | How nice you look! | Necə gözəl görünürsən! |

Bu bölgüdə kontekstdən asılı olaraq danışıq aktlarının intonasiya vasitəsilə mənaları tam açılır [5, 483-494].

Modal feillərin və modal sözlərin danışıq aktının növlərindən olan direktivlərdə intonasiya vasitəsilə subyektiv çalarlar ifadə etməsini görmək mümkündür. Məsələn,

¿*Will* you look at your notes, please? (Zəhmət olmasa, qeydlərinizə baxa bilərsinizmi?)

¿*Can* you open the window? (Pəncərəni aça bilərsinizmi?)

Bu nümunələrdə /will/ və /can/ modal feilləri nəzakət və xahiş bildirmək məqsədilə işlədilmişdir. Vanderveken D. yazır ki, direktivlərin işlədilməsi modal feillər danışanın məqsədinin subyektiv tərəfinin qabardılması ilə müşahidə edilir [4, 682]. Bundan əlavə, danışıq aktında intonasiya situasiyadan asılı olan və situasiya ilə formalaşan bir mexanizm hesab edilir. D.Breyzil yazır: "İntonasiya situasiya ilə formalaşan bir vasitədir". Danışıq aktında intonasiyanın kontekst və ünsiyyətin funksiya baxımından araşdırılmasının vacibliyini qeyd edir [3, 24].

F.Veysəlliyə görə, "…intonasiya vahidləri terminal, davamedici və sual olmaqla bir sistem yaradır və bu sistemdə intonasiya vahidləri qarşılaşdırılmalıdır [1, 235]. Məsələn, ünsiyyətdəki məqsədinə görə cümlə növləri ilə müvafiq danışıq aktlarını aşağıdakı kimi qarşılaşdıra bilərik:

Nəqli cümlə *sual, əmr, təklif, nida* kimi danışıq aktlarında müşahidə edilə bilər:

Nümunələr:

(1) So, you are going to be here about quarter past? (nəqli cümlə sual formasında);
(2) You sit here. (əmr forması);
(3) I'll hold this bag for you. (təklif);
(4) That is my position! (nida).

Sual cümləsi *əmr, xahiş, təklif, gücləndirilmiş nəqli* cümlələrində müşahidə edilə bilər [6, s. 291-312].

Nümunələr:

¡*Will* you be quiet! (əmr) (Sakit olarsınızmı!; yaxud: Sakit olun!)

¿*Could* you carry this box for me? (xahiş) (Mənim üçün, zəhmət olmasa bu qutunu daşıya bilərsinizmi?)

¡Were you embarrassed when you realized what had happened! (gücləndirilmiş akt) (nə baş verdiyini xatırlayanda utandın!)

İntonasiya ilə danışıq aktı arasındakı möhkəm əlaqə onu kommunikasiyanın vacib

vasitəsinə çevirir. Danışıq aktının düzgün başa düşülməsi üçün onun tərkibinə daxil olan sözlərin hamısının tanınması vacib deyildir. Belə halda kontekst eşidilməmiş sözün bərpasına yardım edir. Şübhəsiz, belə hallarda intonasiyanın rolu danılmazdır. F.Veysəllinin qeyd etdiyi kimi, "İntonasiya seqmentüstü hadisə olmaqla, fikrin dinləyiciyə çatdırılmasında mühüm rol oynayan fonoloji vasitədir" [1, s. 299].

Digər diskursiv vasitələr kimi intonasiya da polifunksional dil hadisəsidir. İntonasiya danışıq aktında təzahür edən söyləmin kommunikativ komponentlərini (rema, tema və müqayisə fokusu), onun illokutuv mənsubiyyətini (təsdiq, etiraz, sual və s.), qrupların faza səciyyəsini (başlanğıc/son və ya proqrediyent/terminal), qiymətləndirmə modusunu (epistemik, aksioloji və s.) və bir çox cəhətlərini nişanlayır.

Müasir dilçilikdə intonasiyaya həsr olunmuş tədqiqat işləri onun söyləmin məzmun cəhətinin ifadə olunmasında və leksik-qrammatik vasitələrlə qarşılıqlı əlaqəyə girərək ünsiyyətin məzmununun formalaşmasında iştirak etdiyini əks etdirir. İntonasiyanın sintaktik funksiyası dedikdə, təkcə danışıq aktının kommunikativ növünün tərtibini, danışıq aktını bütövə çevirdiyini deyil, həm də intonasiyanın məna və qrammatik strukturu ilə bağlı olan sintaqmatik üzvlənməni də nəzərdə tutmaq lazımdır. L.R.Zinderə görə, prosodiya iki funksiya yerinə yetirir: emosional və ona qarşı duran kommunikativ funksiya. İkinci anlamda o, prosodiyanı məna və cümlənin sintaktik quruluşu ilə bağlayan hər şeyi başa düşür [2, s. 268]. Bundan sonra o, intonasiyanın kommunikativ aspektinin əsas mənalarını qeyd edir:

1) danışıq aktını cümlələrə parçalayan vasitədir;

2) danışıq aktının kommunikativ növlərinin təyin olunmasında iştirak edir;

3) danışıq aktının aktual üzvlənməsində iştirak edir və onu sintaqmlara bölür və s. [3, 271].

Danışıq aktı intonasiyasının əsas funksiyası nominativ vahidi kommunikativ vahidə çevirməkdən ibarətdir. Hər bir danışıq aktına iki forma xasdır: sözlərdən asılı olan dil forması, yəni sözlərin vasitəsilə düzələn forma və seqment forma, yəni ton, ritm, vurğu, intonasiya ilə düzələn forma. Bu göstərilən formalar arasında kəskin fərqlər mövcuddur və bu fərqin mövcudluğu bir ifadə daxilində həmin formaların bir-birinə müvafiq gəlməsi ilə təsdiq olunur, yəni qrammatik quruluş ilə supraseqment formalar heç də həmişə bir-birinə müvafiq gəlmir. Qrammatik quruluş ilə prosodik xüsusiyyət müvafiq gəldikdə intonasiya əsas funksional rola malik olur. İntonasiya vasitələri qrammatik quruluşa nisbətən sərbəst xarakteri ilə fərqlənir. İntonasiya vasitələrinin sərbəstliyi özünü cümlələrin sintaqmatik, aktual və s. üzvlənməsində daha çox büruzə verir.

Danışıq aktının əsasını təşkil edən intonasiya kommunikativ vahidi müəyyən formaya salmaqla kifayətlənmir, həm də fikri anlaşıqlı etmək üçün onu kiçik məna vahidlərinə - sintaqmlara bölür. Amma intonasiya sərbəst vahid sintaktik və leksik materialdan təcrid edilmiş şəkildə çıxış edə bilmir. Onun fəaliyyət dairəsi danışıq aktının sintaktik fəaliyyəti ilə üzvi surətdə bağlıdır. Lakin qeyd olunduğu kimi, intonasiya dildə müəyyən funksiya daşıyan, fikrin ifadə olunması üçün cümləni aktuallaşdıran fonoloji bir vasitədir.

**Məqalənin aktuallığı**. Aktuallıq hazırda əhəmiyyətli olan danışıq aktında intonasiyanın rolunun öyrənilməsindən ibarətdir.

**Məqalənin elmi yeniliyi**. Elmi yenilik danışıq aktında intonasiyanın formal və semantik xüsusiyyətlərinin müəyyənləşməsi, araşdırılmasıdır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi**. Bu, məqalədə fərqləndirilən vasitələrin tələbələr, müəllimlər, tədqiqatçılar və digərləri tərəfindən düzgün istifadəsinə kömək etmək.

## Ədəbiyyat

1. Veysəlli F.Y. Seçilmiş əsərləri. Bakı: Mütərcim, 2008.
2. Зиндер Л.Р. Общая фонетика. М.: Высшая школа, 1979.
3. Brazil D., M.Coulthard, C.Johns. Discourse intonation and language teaching. London: Longman Higher Education, 1980.
4. Carter R., and M.McCarthy. Cambridge Grammar of English. Cambridge: Cambridge University Press, 2006.
5. Geluykens R. Intonation and speech act type: An experimental approach to rising intonation in declaratives. Journal of Pragmatics. Volume 11, Issue 4, 1987.
6. Wunderlich D. Methodological remarks on speech act theory. In J.Serale, F.Kiefer and M.Bierwisch (eds.). Speech Act Theory and Pragmatics. Dordrech: D.Reidel Publishing.

**T. Shahbazli**

## The role of intonation in distinguishing speech act

## Summary

The article deals with the role of intonation in distinguishing speech act. It states that intonation has a great role in studying the kinds of speech act. Each kind of speech act means something new through intonation. The article highlights the fact that the means of intonation is defined by its independent feature than any other grammatical structure. The independence of intonation means is seen in the syntagmatic, and actual linking of speech act. Intonation is not limited by defining the communicative unit but also it helps to catch the correct meaning of speech acts. The examples are used to define the role of intonation in speech acts. A lot of linguistic sources have been used in the article as well.

**Т. Шахбазли**

## Роль интонации в различении речном акте

## Резюме

В статье рассматривается роль интонации в различении речевого акта. В нем говорится, что интонация играет большую роль в изучении видов речевого акта. Каждый вид речевого акта означает что-то новое через интонацию. В статье подчеркивается тот факт, что средства интонации определяются ее независимой особенностью, чем любая другая грамматическая структура. Независимость интонационных средств проявляется в синтагматической и фактической связи речевого акта. Интонация не ограничивается определением коммуникативной единицы, но также помогает поймать правильное значение речевых актов. Примеры используются для определения роли интонации в речевых актах. В статье также было использовано много лингвистических источников.

**Redaksiyaya daxil olub:** 12.07.2018